# Təbrizin ərəb əlifbasında Azərbaycandilli zəngin mətbuat tarixi...

**İnqilablar beşiyi Təbriz həm də ana dilimizin, mədəniyyətimizin, ədəbiyyatımızın, mətbuatımızın təəssübkeşliyini qoruyub. Təbrizdə, bütövlükdə Cənubi (Güney) Azərbaycanda ana dilli mətbuatımız müəyyən zamanda inkişaf edib. Mətbuatın dili yaşadan əsas amillərdən biri olduğunu nəzərə alsaq deyərdik ki, Cənubi Azərbaycan mətbuatı ana dilimizin yaşamasında əməlli-başlı mücadilə verib.**




Bəzən ana dilini yaşatmaq ziyalılarımıza canları bahasına başa gəlib, amma son nəfəslərinə qədər bu yoldan çəkilməyiblər. Güney Azərbaycanın ana dilli mətbuatı sırasında "Vətən yolu" qəzetinin xüsusi yeri var. Bu gün də "Vətən yolunda" nəşri barədə danışılır, yazılır.

İkinci Dünya Müharibəsi illərində Sovetlərin Təbrizə, Güneyə daxil olması məlumdur. Təbii, Sovet İttifaqının bunda xüsusi marağı vardı. Bəziləri iddia edir ki, məqsəd iki Azərbaycanı birləşdirmək olsa da, sonradan Stalin bu niyyətindən əl çəkib. Aydın məsələdir ki, bu qeyri-real söhbətdir. Qayıdaq "Vətən yolunda" qəzetinə.

Qeyd edilənə görə, "Vətən yolunda" İkinci Dünya müharibəsi illərində Təbrizdə Azərbaycan dilində ərəb əlifbası ilə nəşr olunan qəzet olub. Bəzi tədqiqatçılar onu "Qızıl Ordu" qəzeti adlandırır.

Məlumatlara görə, qəzetin ilk sayı 1941-ci il oktyabrın 11-də nəşr olunub. Günaşırı nəşr olunan qəzetin çap olunmasının birinci mərhələsi 1942-ci il aprelin 13-ə qədər davam edib və bu müddətdə 89 nömrəsi çıxarılıb. Tədqiqatçıların yazdıqlarına görə, "Vətən yolunda" qəzetinin nəşr olunduğu birinci mərhələ ilə eyni zamanda İranın başqa şəhərlərində "Qızıl Ordu" qəzetləri nəşr olunurdu. Məsələn, Urmiyada Azərbaycan dilində Zülfəli İbrahimovun redaktorluğu ilə "Qızıl əsgər", Xasay Vəzirovun redaktorluğu ilə Rəştdə fars dilində "Sərbaz-e sorx" qəzetləri çap olunurdu.

Tədqiatçıların yazdıqlarına görə, iki illik fasilədən sonra 1944-cü il aprel ayının 10-dan qəzetin ikinci mərhələsinin nəşrinə başlanılıb. Bu mərhələ 1946-cı ilin mayın 1-ə qədər davam edib və həmin müddət ərzində (1941-1946) qəzetin 406 nömrəsi nəşr olunub.

**Rza şah hakimiyyətindən sonra İranda ilk dəfə Azərbaycan dilində çap olunan qəzet...**

"Vətən uğurunda" qəzeti öz dövründə çox populyar qəzet olub, burada ideoloji xəttlə yanaşı ana dilimizin, ədəbiyyatımızın, mədəniyyətimizin yaşadılması, təbliği ilə bağlı çox böyük işlər görülüb. Başlıcası, dilimizin gözəlliyi, şəhd-şirəsi bu qəzetdə ifadə olunub. Bir sıra imzalar "Vətən yolunda" qəzeti vasitəsilə güneylilərə tanıdılıb. Qəzetin səhifələrində Məhəmməd Biriya, Mir Mehdi Etimad, Əli Tudə, aşıq Hüseyn Cavan, Balaş Azəroğlu, Əli Fitrət, Yəhya Şeyda, Məmmədbağır Niknam, Məhəmmədəli Fəxrəddini (Məhzun), Hökumə Billuri, Əli Nişani, Həbib Sahir, Qulu Xan Borçalı, Tağı Milani, Məhəmmədəli Hilal Naseri, Mədinə Gülgün və digər şairlərin şeirləri, Məhəmmədlu Əbbasi, Ə.Sefvət, Abdulla Fərivər, Səməd Səbahi, Mirrəhim Vilayi, Məhəmmədəli Fərzanə "Qövsi) və digərlərinin məqalələri çap olunurdu.

Şübhəsiz ki, öz ədəbi dilini öyrənən güneyli soydaşlarımız üçün "Vətən yolunda" qəzetinin xüsusən əhəmiyyəti vardır. "Vətən yolunda" qəzeti uzun illər Rza şah hakimiyyətindən sonra İranda ilk dəfə Azərbaycan dilində çap olunan qəzet idi.

**"Vətən yolunda" qəzetinin ilk baş redaktoru Mirzə İbrahimov olub...**

"Vətən yolunda" qəzetindən danışarkən burada Şimali Azərbaycan yazıçı və şairlərinin fəaliyyətini xüsusi vurğulamalıyıq. Bu qəzetdə ana dilimizin geniş təbliğini qarşıya məqsəd qoyan ziyalılarımız bu uğurda çox mücadilələr verib. Qəzetin ilk baş redaktoru xalq yazıçısı Mirzə İbrahimov olub.

Qəzetin tarixini araşdıranlar yazırlar ki, qəzetin nəşr olunduğu 1941-1946-cı illərdə Mirzə İbrahimov, Həsən Şahgəldiyev və Rza Quliyev onun baş redaktorları olub. Redaksiyada isə şairlərdən Süleyman Rüstəm, Osman Sarıvəlli, Məmməd Rahim, yazıçılardan Süleyman Rəhimov, Əvəz Sadıq, Ənvər Məmmədxanlı, Qılman İlkin (Musayev), Seyfəddin Dağlı (Abbasov), Cabbar Məcnunzadə, jurnalist, elm və mədəniyyət xadimlərindən İsrafil Nəzərov (məsul katib), Qulam Məmmədli, Həmid Yolçuyev, Cəfər Xəndan (baş redaktorun müavunu), Mehdixan Vəkilov, Mirzəağa Quluzadə, Rəhim Sultanov, Məmmədağa Sultanov, rəssamlardan İsmayıl Axundov, Kazım Kazımzadə, Salam Salamzadə və ə bir çox başqaları işləyib. "Vətən yolunda" qəzetinin səhifələrində 50-yə yaxın yerli şair öz şerlərini çap etdirirdi. Elə onlar da qəzetin nəzdində "Şairlər məclisi" yaranmasının təşəbbüsçüsü oldular. "Şairlər məclisi"nin ilk iclası 1945-ci il yanvarın 7-də keçirildi və Mir Mehdi Etimad onun sədri seçildi.

**"Güneydə milli şüurun, milli iftixar hissinin oyanmasına çalışırdı"**

Tədqiqatçı Pərvanə Məmmədli "Vətən yolunda" qəzetindən yazarkən qeyd edir: "Mirzə Cəlildən sonra Arazı keçən, "o taya ana dili aparan" (Yaşar Qarayev), Təbrizdə qəzet nəşr eləyən ikinci ədibimiz Mirzə İbrahimov oldu!

Məhz Güney mövzusuna sədaqəti onu nasirlərimiz içində həmidan ayırdı. Mirzə İbrahimov o taya ana dilini aparmaqla yanaşı, Təbrizdə ana dilində nəşr olunan "Vətən yolunda" adlı qəzetinin də bünövrəsini qoydu.

Güney Azərbaycan mövzusu Mirzə İbrahimovun yaradıcılığında önəmli yer tuturdu. Onun bir çox publisistik və ədəbi əsərləri, eləcə də "Gələcək gün" romanından ayrı-ayrı parçalar Təbrizdə nəşr olunan "Vətən yolunda" qəzetinin səhifələrində çap edilmişdi.

1941-ci ildə Təbrizdə Azərbaycan dilində çıxan "Vətən yolunda" adlı ordu qəzetinin redaktorluğu Mirzə İbrahimova tapşırılmışdı. Qəzetini ilk sayı 1941-ci il oktyabr ayının 11-də çapdan çıxmışdı. Qəzet oradakı azərbaycanlı əsgərlər üçün nəzərdə tutulmuşdu. Qəzetin yerli əhali tərəfindən oxuna bilməsi üçün onun ərəb əlifbası ilə çap edilməsi qərara alınmışdı və günəşiri nəşr olunurdu. "Vətən yolunda" qəzeti 1920-ci ildə Xiyabani hərəkatı yatırıldıqdan sonra Azərbaycan dilində çıxan ilk qəzetlərdən idi. (İki dildə çıxan qəzetlər mövcud olsa da, Azərbaycan dilində materiallara çox az yer ayrılırdı - P.M.)".

P.Məmmədli vurğulayır ki, 1946-cı ilin may ayına qədər davam edən qəzetin ümumilikdə 406 sayı çapdan çıxmışdır.

"Mirzə İbrahimov Təbrizdə qəzet çıxarmaqla yanaşı, Güney Azərbaycanı qarış-qarış gəzir, ən ucqar kəndlərdə belə olur, əhali ilə görüşür, onların dərdlərini, istəklərini öyrənirdi. Digər tərəfdən o, gələcək əsərləri üçün materiallar toplayırdı.

O, yazılarını çox zaman "Əjdəroğlu", bəzi hallarda İ.Mirzə kimi imzalayırdı. "Vətən yolunda" qəzetində Mirzə İbrahimovun yazılarının az bir qismində imza olurdu. Qəzetdəki baş məqalə və redaksiya məqalələrinin də onun qələminə məxsus olduğunu ehtimal etmək olar.

"Vətən yolunda" qəzetinin ilk sayi oktyabrın 11-də, 4000 tirajla nəşr olunmuşdu. O dövr üçün bu tiraj yüksək göstərici idi, lakin qəzetin ilk sayı qısa müddətdə satılıb qurtarmışdı.

Qəzetin səhifələri çeşidli rubrikalar altında publisistik yazılar və kəskin felyetonlar, incəsənətlə bağlı icmallar, nəsr və poeziya örnəkləri ilə zəngin idi. Bütün bunlar söz yox ki, qəzetin redaktoru Mirzə İbrahimovun gərgin zəhməti bahasına başa gəlirdi.

Qəzetin ikncі sayından başlayaraq incəsənətlə bağlı yazılara geniş yer ayrılırdı. Bülbülün Azərbaycan operasının zirvəsi olan "Koroğlu", Şəmsi Bədəlbəylinin "Arşın mal alan", Həbib Səmədzadənin "Leyli və Məcnun"la bağlı yazıları oxucularda maraq doğururdu. "Şah İsmayıl" və "Gülzar" operaları haqqında yazılar, habelə İ.Hidayətzadənin, Niyazinin, G.İsgəndərovanın, O.Sarıvəllinin məqalələri də diqqət çəkirdi.

Qəzetdə nəşr olunan bədii örnəklərin əsas bölümünü poeziya təşkil edirdi. İlk saylarda S.Vurğunun, S.Rüstəmin, O.Sarıvəllinin bir çox şerləri dərc olunmuşdu. O illərdə "Vətən yolunda" və "Azərbaycan" kimi qəzetlərində folklorun toplanıb öyrənilməsi, yayılması işi geniş yayılmışdı.

"Vətən yolunda" qəzetində çap olunan mövzulara gəldikdə isə onlar iki istiqamətdə idi:

1) Sovet sosialist ideologiyasının təbliği; 2) yerli əhalinin maarifləndirilməsi.

Birinci sıraya daxil olan yazılarda sovet döyüşçülərinin cəbhədəki qəhrəmanlıqları, antifaşist təbliğatı, sovet cəmiyyətinin və sovet həyat tərzinin gözəl boyalarla təsviri, sosializmin kapitalizmdən üstün olduğunu "ciddi cəhdlə" göstərməklə sovet cəmiyyətinin gələcəkdəki xoşbəxt proqnozu verilirdi. "Böyük Vətən müharibəsi cəbhələrində", "Böyük Vətən müharibəsi qəhrəmanları", "Sovet İttifaqında" və s. rubrikalar altında gedən bu yazılar o illərdə sovet mətbuatında dərc edilən materialların bir növ eyni idi. Təbii ki, sovetlər ölkəsinin hər sahədə uğurlarından danışan jurnal İranda Kommunist təbliğatına xidmət edirdi.

İkinci qismə isə Azərbaycan mədəniyyətini, Azərbaycan klassik və çağdaş dövründəki ədəbi simaları, dil və ədəbiyyat tarixi, dünya ədəbiyyatı örnəklərini, məktəb və maarif sahələrini özündə əks etdirən yazılar daxil idi. Jurnal belə yazıları verməklə yüksək amala xidmət edirdi. Güneydə milli şüurun, milli iftixar hissinin oyanmasına çalışırdı. Qəzetin birinci mərhələdə cəmi 6 ay fəaliyyət göstərib qapadılması Güney Azərbaycanda olan siyasi işçilərin Bakıya geri çağırılması ilə əlaqədar idi".

Tədqiqatçı qeyd edir ki, qəzetin səhifələrində Azərbaycan ədəbiyyatının N.Gəncəvi, X.Şirvani, M.Füzuli, M.P.Vaqif, M.F.Axundov kimi klassiklərinin, eləcə də Mirzə Cəlil, M.Ə.Sabir, M.S.Ordubadi və S.Vurğun kimi şairləri və digər söz sənətkarları tanıdılırdı.

"Vətən yolunda" qəzeti Güney Azərbaycanda ana dilində ədəbiyyatın inkişafı üçün geniş imkanlar yaradırdı.

"Vətən yolunda" qəzeti bədii söz sənətinin saygı və dəyərini özünə qaytarmaqla yanaşı Güney Azərbaycan ədəbiyyatında, publisistikasında yeni qələm ordusunun yaranmasında da az iş görmürdü. Bunları da P.Məmmədli yazıb.

"Vətən yolunda" qəzeti Güney Azərbaycanda nəşr olunan ana dilli qəzet kimi güneyin mətbuat tarixdə xüsusi yerə malikdir. Bu qəzet Sovet ideologiyasını yaymaq məqsədilə yaradılsa da, amma dilimizin, ədəbiyyatımızın, milli şüurumuzun inkişafında əməli rol oynadı, çünki o qəzeti nəşr edənlər, orada yazanlar milli düşüncəli qələm adamları idilər. Onlar bu gün fiziki olaraq yoxdurlar, amma onların yazıb-yaratdıqları yaddaşlardadır...

*İradə SARIYEVA*